AzərEnerji

# "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin "Peşə sağlamlığı və təhlükəsizliyi Siyasəti"

"Azərenerji" ASC regionda elektrik enerjisinin istehsalını, ötürülməsini və dispetçer idarəetməsini həyata keçirən aparıcı təşkilatdır.
Səhmdar Cəmiyyətin "Peşə sağlamlığı və təhlükəsizliyi üzrə Siyasət"i Azərbaycan Respublikası Konstitusiyasına, digər normativ hüquqi aktlara, peşə sağlamlığı və təhlükəsizliyi sahəsində Respublikanın bağladığı və tərəfdaş çıxdığı beynəlxalq müqavilələrə və Cəmiyyətin Nizamnaməsinə əsaslanır.

Cəmiyyətin "Peşə sağlamlığı və təhlükəsizliyi Siyasət"i "ISO 45001:2018 beynəlxalq standartı"na uyğun, müasir texnologiyaları tətbiq etməklə elektrik enerjisinin istehsalı, ötürülməsi və idarəetməsi zamanı sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına, hadisə və qəzaların qarşısının alınmasına yönəlib.

Səhmdar Cəmiyyət "Peşə sağlamlığı və təhlükəsizliyi Siyasət"ini aşağıdakı əsas prinsiplər üzrə müəyyən edir:

- *Peşə sağlamlığı və təhlükəsizliyi sahəsində Azərbaycan Respublikası tərəfindən qəbul edilmiş normativ sənədlərin, beynəlxalq saziş və konvensiyalar əsasında müəyyənləşdirilmiş qaydaların və tələblərin icrası;*
- *Enerjinin istehsalı, ötürülməsi və dispetçer idarəetməsinin həyata keçirilməsi zamanı peşə sağlamlığı və təhlükəsizliyi baxımından yarana biləcək təhlükələrin aradan qaldırılması və risklərin azaldılması üçün müvafiq tədbirlərin görülməsi;*
- *İş (istehsalat) sahələrində işçi heyətin, podratçı/subpodratçı və autsorsinq xidmətlərini təmin edən təşkilatlardan işçilərinin texniki təhlükəsizliklə bağlı qayda və normalara riayət olunmasının tələb olunması və nəzarətin təmin edilməsi;*
- *İnteqrasiya Olunmuş İdarəetmə Sistemi çərçivəsində peşə sağlamlığı və təhlükəsizliyini idarəetmə sisteminin ISO 45001:2018 beynəlxalq standartının tələblərinə uyğun qurulması, tətbiqi və davamlı təkmilləşdirilməsi;*
- *Səhmdar Cəmiyyətin əməkdaşlarının müvafiq təlimlərə cəlb edilərək onların öz iş fəaliyyəti çərçivəsində peşə sağlamlığı və təhlükəsizliyi sahəsində fəal iştiraklarının təmin olunması;*
- *Potensial qəza və fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün ayrılan qüvvə və vasitələrin, habelə bütün işçi heyətinin zəruri hazırlıq səviyyəsinin təmin edilməsi və baş vermiş hadisənin təsirinin azaldılması və fəsadlarının aradan qaldırılmasının təmin edilməsi;*
- *Fəaliyyət nəticələrinin yaxşılaşdırılması məqsədilə "Peşə sağlamlığı və təhlükəsizliyini idarəetmə sistemi"nin yararlılığının, adekvatlığının və effektivliyinin davamlı olaraq təkmilləşdirilməsi tədbirlərinin planlanması və yerinə yetirilməsinin təmin edilməsi, zəruri resurslarla təminatın həyata keçirilməsi, habelə daxili kommunikasiya imkanlarını genişləndirərək, hər bir işçinin aidiyyatı prosesin qurulmasında, risklərin təyin və qiymətləndirilməsində, tətbiqində və inkişafında aktiv iştirakının təmin edilməsi.*

**"Azərenerji" ASC-nin prezidenti** **B. H. Rzayev**

Azərbaycan Respublikası "Azərenerji" ASC * Azerbaijan Republic "Azerenerji" OJSC

"15" 08 2024 cü il